# Uşaq kitab karvanı Şirvan yolunda

Azərbaycan Respublikası müstəqillik qazanandan sonra bütün sahələrə olduğu kimi mədəniyyət və elm sahəsinə də diqqət artmış, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir.

Azərbaycan klassiklərinin, görkəmli ədiblərin əsərləri, dünya korifeylərinin ən dəyərli sənət nümunələri nəşr edilərək geniş oxucu kütləsinin istifadəsindən ötrü kitabxanalara paylanmış, bu istiqamətdə işlər ardıcıl olaraq davam etdirilir. Müxtəlif vaxtlarda Bakı şəhərində, eləcə də respublikanın ayrı-ayrı rayonlarında kitab bayramları, kitab sərgiləri, yeni çap olunmuş əsərlərin təqdimatı və müzakirəsinin keçirilməsi də uşaq və yeniyetmələrdə elmə, kitaba marağın artmasına xidmət etmişdir.

Bu baxımdan, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Mədəniyyət və Turizm Nazirliyinin təşkilatı dəstəyi ilə artıq üç ildir ki, "Kitab karvanı" adı altında regionlarda uşaq və yeniyetmələr üçün gerçəkləşdirdiyi səyyar sərgilər xüsusi diqqət çəkir.

**Şirvan**

Ulu öndər Heydər Əliyevin 90 illiyi ilə əlaqədar keçirilən "Uşaq kitab karvanı - Şirvan yolunda" səyyar kitab sərgisi bu şəhərdən start götürdü. Tədbirdə Şirvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri Əziz Abbasov, MKS-in direktoru İltifat Nəbiyev, Şirvan Şəhər İcra Hakimiyyəti təhsil və səhiyyə şöbəsinin müdiri, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, həmçinin kitabxana əməkdaşları, uşaq yazıçılarından İlyas Tapdıq, Gülzar İbrahimova, Ələmdar Quluzadə, Sevinc Nuruqızı, Qəşəm İsabəyli, "Tumurcuq" qəzetinin baş redaktoru Səməd Məlikzadə iştirak edirdi.

Çıxış edənlər mərasimin keçirilməsində məqsədin respublikanın şəhər və rayon mərkəzi kitabxana sistemində və filiallarında səyyar sərgilər vasitəsi ilə uşaq ədəbiyyatına olan marağın yüksəldilməsi, uşaqların mütaliəyə cəlb edilməsi, rayonlarda kənd uşaqlarının oxuya tələbatın təmin edilməsi, ictimaiyyətin diqqətinin bu məsələyə yönəldilməsi olduğunu bildirdilər.

Tədbirdə Şirvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin rəqs qrupu və uşaq musiqi məktəbi kollektivinin ifaları rəğbətlə qarşılandı. Burada son illərdə nəşr olunmuş uşaq ədəbiyyatı nümunələri sərgiləndi və Şirvan Şəhər Mərkəzi Kitabxana Sisteminin uşaq şöbəsinə təmənnasız olaraq verildi.

Tədbirin sonunda kiçik yaşlı uşaqlar arasında "Tap görüm" adlı viktorina keçirildi və qaliblər hədiyyələrlə mükafatlandırıldı. Həmçinin bütün kitabsevərlər arasında tədqiqat xarakterli "Bilmək istəyirik ki..." adlı rəy sorğusu aparıldı.

**Hacıqabul**

Şirvan şəhərindən sonra estafeti bu rayon qəbul etdi.



Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası məqsədilə qədim karvan yolunun üzərində yerləşən Hacıqabul diyarında keçirilən tədbir ulu öndərin heykəli önünə gül dəstələri qoymaqla başladı, sonra qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edib, xatirə kitabına ürək sözlərini yazdılar.

Mərasimi Hacıqabul Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov açaraq qonaqları salamladı. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova çıxış edərək keçirilən tədbirin əhəmiyyətindən danışdı, uşaq yazıçılarını və digər qonaqları təqdim etdi.

Uşaq yazıçıları, "Şirvannəşr"in direktoru Qəşəm İsabəyli, "Sehirli dünya" jurnalının baş redaktoru Gülzar İbrahimova, Azərbaycan Televiziya və Radiosu uşaq verilişləri redaksiyasının baş redaktoru Ələmdar Quluzadə və "Tumurcuq" qəzetinin baş redaktoru Səməd Məlikzadənin çıxışları maraqla qarşılandı.

Fəal məktəbli oxucular öz şeir töhfələri ilə tədbirə rəng qatdılar. İştirak edən məktəblilər arasında uşaq ədəbiyyatı haqqında tədqiqat xarakterli rəy sorğusu keçirildi. Sərgiyə gətirilən kitablar MKS-in uşaq şöbəsinə hədiyyə olundu.

**Saatlı**

Tədbir Heydər Əliyev Mərkəzinin qarşısında keçirildi. Saatlı Rayon İcra Hakimiyyəti başçısının müavini Reyhan Ocaqova, MKS-in direktoru Sakit Bağırovla yanaşı, mərasimdə rayon ictimaiyyəti də yaxından iştirak etdi.

Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən gətirilmiş 750 nüsxə kitab və jurnallar sərgiləndi.



Mərkəzi Kitabxana Sisteminin əməkdaşları uşaqların maraq dairələrinə uyğun olaraq müxtəlif başlıqlar altında sərgi-stendlər təşkil etdilər: "Sevimli uşaq yazıçılarımız", "Yurdumuzun gözəllikləri", "Sənin maraq dünyan", "Şirvana gəl, Şirvana" və s.

Tədbiri MKS-in direktoru Sakit Bağırov açaraq qonaqları salamladı, sonra sözü Şəhla Qəmbərovaya verdi. Şəhla xanım da öz növbəsində uşaqların informasiya tələbatının ödənilməsi məqsədilə Dövlət Proqramında nəzərdə tutulan maddələrin həyata keçirilməsi üçün gerçəkləşdirilən layihənin əhəmiyyətindən danışdı. Tədbirdə uşaqlar şeirlər söylədilər, "Tap görüm" adlı viktorinada iştirak edərək hədiyyələr qazandılar.

Uşaq yazarları çıxış edərək özlərinin duzlu-məzəli şeirlərini söylədi, kitabın, mütaliənin əhəmiyyətindən söz açdılar. Sərgilənən bütün kitablar MKS-in uşaq şöbəsinə hədiyyə olundu. Qonaqlar rayounun tarix-diyarşünaslıq muzeyi, qalereya və Gənclər Mərkəzini ziyarət etdilər. Burada yeniyetmələrin dünyagörüşlərinin artırılması istiqamətində müxtəlif dərnəklər fəaliyyət göstərir.

**İmişli**

Burada da tədbir Heydər Əliyev Mərkəzinin qarşısında keçirildi. İmişli Rayon İcra Hakimiyyətinin nümayəndələri, rayon mədəniyyət və

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası



turizm şöbəsinin müdiri Süleyman Bəşirov, MKS-in direktoru Lətifə Məmmədova, rayon ictimaiyyəti və uşaqlar karvanı böyük sevinclə qarşıladılar.

Tədbirdə rayon uşaq yaradıcılıq mərkəzinin kollektivi, uşaq bağçaları, 1, 2, 3, 4, 5 saylı şəhər orta məktəbinin müəllim və şagirdləri, mədəniyyət işçiləri, ictimaiyət və yerli KİV nümayəndələri iştirak etdilər.

MKS-in direktoru Lətifə Məmmədova iştirakçıları salamlayaraq kitabın insan həyatında necə mühüm rol oynadığını bildirdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova çıxışında qeyd etdi ki, tədbirin məqsədi əhalinin, uşaqların kitaba, mütaliəyə həvəsinin artırılması, informasiya boşluğunun aradan qaldırılması və kitabxana-informasiya xidmətinin əhatə dairəsinin genişləndirilməsindən ibarətdir.



Sonra şair İlyas Tapdıq söz alaraq körpə uşaqlara elmin, texnikanın inkişafında yüksək nailiyyətlər qazanmaq üçün çoxlu kitablar oxumağı tövsiyə etdi. Uşaq yazıçısı Gülzar İbrahimova tədbir iştirakçılarına yeni əsərləri haqqında məlumat verdi və "Sehirli dünya" jurnalının yeni nüsxələrini hədiyyə etdi.

Məktəblilər vətənə, kitaba, mütaliəyə dair şeirlər söylədilər.

Tədbirin sonunda maraqlı viktorinalar keçirildi, fərqlənənlər hədiyyə qazandılar. Səyyar sərgidə nümayiş olunan kitab və jurnallardan ibarət 750 nüsxə nəşr nümunəsi İmişli Rayon MKS-nə hədiyyə edildi. Oxucular arasında "Mütaliə və müasir kitabxana" mövzusunda rəy sorğusu keçirildi.

**Beyləqan**

Tədbir Bayraq günü ilə eyni vaxta təsadüf etdiyindən Beyləqanda xüsusi coşqu ilə gerçəkləşdirildi. Mərkəzi meydanda keçirilən mərasimdə çıxış edən Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev bu günün əhəmiyyətindən danışaraq vurğuladı ki, üçrəngli bayrağımız 1918-ci ildən başlayaraq Azərbaycan səmalarında iyirmi üç ay dalğalansa da, ölkəmizin Sovet imperiyasının təcavüzünə uğramasından sonra endirilib: "Müstəqilliyimizin bərpa edilməsindən sonra digər atributlar kimi, dövlət bayrağımız da bərpa olunub".

Daha sonra rayon gəncləri mərkəzi meydandan uzunluğu 150 metrə çatan üçrəngli bayraqla ümummilli lider Heydər Əliyevin adını daşıyan parka qədər yürüş etdilər. 3000-ə yaxın insanın iştirak etdiyi aksiyaya rayon ictimaiyyəti ilə yanaşı, hərbiçilər də qoşuldu. Yürüş iştirakçıları Heydər Əliyev parkında keçirilən kitab sərgisinə də tamaşa etdilər.

Ulu öndərimizin adını daşıyan Heydər Əliyev Parkının qarşısındakı meydanda təşkil olunmuş tədbirdə rayon icra başçısı Vaqif Abdullayev, mədəniyyət və turizm şöbəsinin müdiri Nazim Mirzəyev, ictimaiyyət nümayəndələri, mədəniyyət işçiləri, müəllimlər, orta məktəb şagirdləri və məktəbəqədər müəssisələrin uşaqları iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan rayon mərkəzi kitabxanasının direktoru Gültəkin Məmmədova gələn qonaqları və iştirakçıları salamlayaraq kitab karvanının əhəmiyyətindən danışdı, yüksək diqqət və qayğıya görə mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayevə dərin minnətdarlığını bildirdi.

Mərasimdə iştirak edən respublikanın tanınmış uşaq şair və yazıçıları İlyas Tapdıq, Qəsəm İsabəyli, Ələmdar Quluzadə, Gülzar İbrahimova iştirakçılarla fikir mübadiləsi apardılar və yeni kitablarını hədiyyə etdilər. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının müdiri Şəhla Qəmbərova, kitabxananın əməkdaşları Z.Dadaşova, A.Əşrəfova və başqaları tədbirin təşkilatçıları arasında olmaqla "Mütaliə və müasir kitabxana" mövzusunda rəy sorğusu apardılar. Tədbir günü rayon mərkəzi kitabxanasına 750 nüsxəyə qədər müasir uşaq ədəbiyyatı nümunəsi hədiyyə edildi. Həmçinin uşaqlar arasında viktorina keçirildi, fərqlənənlər mükafatlandırıldı.

**Tədbirdə rayonun musiqi kollektivləri nümunəvi konsert proqramı ilə çıxış etdi. Qonaqlar yeni təmir edilən Mədəniyyət Sarayı və Mərkəzi Kitabxanada oldular, təəssüratlarını bölüşdülər.**

**Z.CABİRQIZI**

